# Rəqəmsal keçid və intellektual idarəetmənin hədəfləri

**Müasir dövrün iqtisadi və sosial çağırışları fonunda Azərbaycan texnoloji tərəqqini, sadəcə, bir vasitə deyil, dövlət idarəçiliyinin əsas dayağı kimi qəbul edən yeni bir mərhələyə qədəm qoyub. Prezident İlham Əliyevin müəyyən etdiyi rəqəmsal keçid kursu ölkəmizin iqtisadi suverenliyini möhkəmləndirmək, idarəetmədə şəffaflığı artırmaq və çevikliyi təmin etmək məqsədilə həyata keçirilən kompleks islahatların mərkəzini təşkil edir. Bu mərhələ ənənəvi idarəetmə üsullarından rəqəmsal texnologiyalara əsaslanan intellektual ekosistemə strateji keçidi əks etdirir.**

Bu prosesdə əsas rol oynayan, Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə fəaliyyət göstərən Rəqəmsal Şura ölkəmizdə rəqəmsallaşma sahəsində sistemsizliyi aradan qaldıraraq dövlət və özəl institutlar arasında vahid koordinasiyanı təmin edir. Şuranın yaradılması yalnız texniki infrastrukturun yenilənməsi deyil, həm də dövlət idarəçilik fəlsəfəsinin innovativ meyarlarla yenidən qurulması deməkdir. Azərbaycanın rəqəmsal keçid strategiyası məlumatların idarə edilməsindən rəqəmsal xidmətlərin əlçatanlığına qədər geniş sahəni əhatə edir.

Dövlət qurumlarının rəqəmsallaşdırılması bürokratik maneələri minimuma endirir və qərarvermə proseslərinin məlumatlara əsaslanan analitik metodlarla aparılmasına şərait yaradır. Rəqəmsal Şuranın fəaliyyəti nəticəsində formalaşan vahid standartlar bulud texnologiyalarının tətbiqini, kibertəhlükəsizlik arxitekturasının gücləndirilməsini və süni intellekt həllərinin dövlət xidmətlərinə inteqrasiyasını sürətləndirir. Eyni zamanda, bu transformasiya insan kapitalının inkişafına yönəlmişdir.

Rəqəmsal savadlılığın artırılması, innovativ sahibkarlığın stimullaşdırılması və rəqəmsal dövrün tələblərinə uyğun hüquqi və iqtisadi baza yaradılması milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyini gücləndirir. Sektorlar üzrə tətbiq edilən innovativ tənzimləmə modelləri isə həm bazarın institusional yetkinliyini artırır, həm də xarici investorlar üçün şəffaf və proqnozlaşdırıla bilən mühit yaradır. Bu xüsusda, Azərbaycan Qiymətləndiricilər Palatası rəqəmsal transformasiyanın uğurlu nümunəsidir.

Palata tərəfindən tətbiq olunan rəqəmsal verifikasiya və QR-kod sistemləri qiymətləndirmə fəaliyyətində şəffaflığı təmin edir və ümumi rəqəmsal dövlət ekosisteminin etibarlılıq zəncirini tamamlayır. Bu cür sektoral rəqəmsallaşma Rəqəmsal Şuranın strateji hədəflərinə uyğun olaraq həm bazarın səmərəliliyini artırır, həm də xarici investisiya cəlbini gücləndirir.




Azərbaycanın rəqəmsal keçidi yalnız indiki dövrün tələbi deyil, gələcək onilliklərin iqtisadi arxitekturasını müəyyən edən fundamental hadisədir.

Prezident İlham Əliyevin uzaqgörən rəhbərliyi və Rəqəmsal Şuranın sistemli yanaşması sayəsində ölkəmiz regionda rəqəmsal mərkəz kimi mövqeyini gücləndirir. Dövlət xidmətlərinin operativliyi, maliyyə-iqtisadi sektorun şəffaflığı və institusional yeniliklər yeni idarəetmə standartlarını müəyyən edir. Bu isə müasir qlobal çağırışlar fonunda olduqca mühümdür.

Beləliklə, institusional islahatların texnoloji həllərlə vəhdəti, Azərbaycanın dördüncü sənaye inqilabının yaratdığı imkanlardan maksimum dərəcədə faydalanmasını təmin edir və qlobal rəqabətdə ön sıralarda olmağı mümkün edir. Rəqəmsal transformasiya Azərbaycan üçün gələcək inkişaf yolunun magistral xəttini təşkil edir və milli rifahın davamlılığını təmin edən ən güclü strateji resursdur.

***Günay İSMAYILQIZI,***
***Azərbaycan Qiymətləndiricilər Palatasının sədr müavini***

Xalq qəzeti .- 2026.- 13 mart (№ 47).- S.13.